**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

***Əlyazması hüququnda***

**TAHİRƏ ƏLİPAŞA qızı MUSTAFAYEVA**

# AZƏRBAYCAN MUSİQİSİNİN İNKİŞAFINDA MİLLİ VİOLONÇEL MƏKTƏBİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** Azərbaycan Respublikasının Əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Hökümə Natiq qızı Əliyeva**

**Rəsmi opponentlər:** Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevda Firudin qızı Qurbanəliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Afaq Fazil qızı Aşumova**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Musiqi və onun tədrisi metodikası" kafedrası.**

Müdafiə ____ may 2017-ci ildə saat 14:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ aprel 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Təqdim olunmuş dissertasiya Azərbaycanda milli musiqimizə özünəməxsus çalarları ilə daxil olmuş violonçel ifaçılığı sənətinə, onun təşəkkülünə həsr olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan professional musiqisinə Qərbi Avropa və rus musiqi ifaçıları tərəfindən daxil olunan violonçel aləti yaranışından bu günə qədər öz tarixi inkişafı baxımından uzun bir yol keçmişdir. Bu musiqi aləti öz ilk başlanğıcını orta əsrlərdə iki diz arasında sıxılaraq saxlanılan və yayla ifa edilən viola da qambadan (İtalyan dilində tərcümədə ayaq viola deməkdir) almışdır.

XVIII əsrdən etibarən bu musiqi aləti konsert solo aləti kimi, daha sonra isə simfonik orkestr və kamera ansambllarında istifadə edilmişdir. Alətin tədricən inkişafı onu kamera və simfonik orkestrin tərkibinə daxil edilməsinə də şərait yaratmışdır. Bir musiqi aləti kimi o musiqiçilərin və dinləyicilərin öz məxməri və oxunaqlı səsi ilə marağına səbəb olmuş, onların bir növ ürəyini fəth etmişdir. Bu alətin təkmilləşmiş müasir vəziyyətini dünya bəstəkarları və ifaçıları hal-hazırda yüksək qiymətləndirirlər. Violino və fortepianodan sonra bir növ violonçel dünya bəstəkarlarının yaradıcılığında mühüm rol oynayan musiqi alətlərindən olmuşdur.

Azərbaycanda milli violonçel sənəti 1925-ci ildən inkişaf etməyə başlamışdır. Məhz Ü.Hacıbəylinin dəvəti ilə görkəmli musiqiçi və violonçel ifaçısı Leopold Vitoldoviç Rostropoviç (1925-1931-ci illərdə) Bakıda yaşamış, Azərbaycanda Y.Eydlin, N.Tsimberov, V.Adamski ilə birlikdə ilk simli kvartet yaratmışdır.

Bundan başqa bu ölkədə Azərbaycanda xarici violonçel ixtisaslı mütəxəssislərin milli violonçel sənətinin inkişafına təsiri də danılmazdır. Üzeyir bəyin təşəbbüsü ilə Azərbaycanda violonçel ixtisası hazırlığında, eyni zamanda kamera ansamblı ilə çıxışlarda, orkestrin tərkibində artist və solist kimi ifa edən musiqiçilərdən L.Rostropoviçlə yanaşı Anton Şvarç, Vladimir Anşeleviç, İsaak Turiç və Abram Neymanın bu sənətin inkişafındakı rolu mühümdür. Onların milli kadr hazırlığındakı rolu əvəzolunmazdır.

V.Anşeleviçin sinfində tanınmış musiqiçilərdən ixtisas üzrə A.Neyman, V.Rubaşevski, N.Əliverdibəyov, İ.Hüseynov, S.Əliyev, A.Flaton, kamera ansamblı üzrə isə K.Abdullayev, S.Əliyev, Y.Anşeleviç (oğlu), L.Mirçin, V.Rubinskaya, J.Tarnaqradskaya, B.Davidoviç təhsil almışdır. Klassik musiqinin və eyni zamanda ifaçılıq sənətinin təbliği və maariflənməsi yolunda əhəmiyyətli rol oynayan V.Anşeleviç 1972-ci ildə Azərbay-

can Respublikasının “Əməkdar İncəsənət xadimi” fəxri adına layiq görülmüşdür. 1938-ci ildə Bakıya dəvət olunan Vladimir Sezaroviç Azərbaycan Dövlət simfonik orkestrin violonçel qrupunun konsertmeysteri təyin edilir. V.S.Anşeleviç musiqi haqqında müxtəlif məruzələrlə çıxış etmiş, Azərbaycanda dünya klassiklərinin violonçel musiqi nümunələrini təbliğ etmiş, milli bəstəkarlarımızın violonçel üçün yazılmış əsərlərin ilk ifaçılarından biri kimi gənclərin maariflənməsində mühüm rol oynamışdır.

Milli violonçel sənəti həmin dövrdən başlayaraq tədricən öz təşəkkülünü Leopold Vitoldoviç Rostropoviçin, Mstislav Rostropoviçin və Sabir Əliyevin violonçel ifaçılığı sahəsində tapmışdır.

Azərbaycanda L.Rostropoviçdən sonra XX əsrin 50-ci illərində Vladimir Sezaroviç Anşeleviç simli kvartet yaratmışdır. 1960-cı ildə ADK-da kamera ansamblı kafedrası yaranır ki, ona tanınmış professional violonçel ifaçısı və pedaqoq İsaak Turiç rəhbərlik etmişdir.

1927-ci il 27 martda Bakıda anadan olmuş Mstislav Rostropoviç, 1943-1948-ci illərdə P.İ.Çaykovski adına MDK-da bitirmiş, Dmitri Şostakoviç kimi görkəmli bəstəkardan təhsil almışdır. Mstislav Rostropoviçlə bir dövrdə Sabir Əliyev yaradıcılığı da milli violonçel sənətinin inkişafına böyük təsir göstərmişdir. Əfsanəvi, dünya şöhrətli musiqiçi, həmyerlimiz M.Rostropoviç həmkarı S.Əliyevlə dostluğun bariz nümunəsi kimi onun ən istedadlı yetirmələri sayılan Səlim Qayıbova, Rasim Abdullayeva, Yuri Abdullayeva, Ramiz Məlikaslanova və Eldar İsgəndərova Moskva şəhərində təcrübə toplamaq üçün ustad dərsləri keçmişdir.

XX əsrin 50-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanda Xalq artistləri Rasim Abdullayev, Eldar İsgəndərov, Əməkdar artist Yuri Abdullayev, Adil Babayev, Səlim Qayıbov, Anatoliy Məmmədov, Əməkdar İncəsənət xadimi, professor Nəzmiyyə xanım Abbaszadə müasir violonçel ifaçılıq məktəbinin ən parlaq simaları sayılaraq Sabir Əliyev ifaçılıq məktəbi ənənələrinin şərəfli davamçılarından olmuşlar.

70-80-ci illərdə isə pedaqoqlardan ibarət simli kvartet yaranır, hansı ki, burada milli kadrlar cəmləşir. 1954-cü ildə Azərbaycan Dövlət kamera orkestrində Dövlət simli kvarteti fəaliyyətə başlayır, Azərbaycanda ilk dəfə qadın ifaçılarından ibarət simli kvartetin yaranmasında Nəzmiyyə Abbaszadənin böyük rolu olmuşdur.

Violonçel alətinin Avropa klassik instrumental ənənələrinin Azərbaycana gətirilməsi, professional səviyyədə tədrisi, konsert repertuarında istifadə olunması bilavasitə Azərbaycan bəstəkarlıq məktəbinin qarşısında bu alətin müxtəlif janrlı əsərlərdə yer alması mühüm bir məsələ kimi həll

olunmasını tələb edirdi. Bu tələblərin sırasında həm ifaçılığın yaradılması, həm də milli musiqinin violonçel alətinə yönəldilməsi Azərbaycan musiqi mədəniyyəti üçün yeni üslub və üsülun yaranması deməkdir. Violonçel alətinin Azərbaycan musiqi mədəniyyətinə gətirilməsi və bu mühitdə təkamül yolunu keçməsi, eləcə də yeni əsərlərin və milli ifaçılıq məktəbinin üzə çıxması prosesini izləmək işin **aktuallığından** xəbər verir. Bu baxımdan Azərbaycanda violonçel məktəbinin yaranması və inkişafı ilə bağlı məsələlər **mövzunun aktuallığını** təşkil edir.

**Tədqiqatın işlənmə dərəcəsi.** Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycan professional musiqi yaradıcılığında violonçel aləti sahəsində tədqiqatlar çox məhduddur.

Azərbaycanda milli violonçel məktəbi haqqında araşdırmalar aparan zaman ilk növbədə kamera-instrumental musiqi sahəsindəki tədqiqatlara nəzər salmaq lazımdır. Belə ki, T.Quliyevin “Azərbaycan kamera-instrumental və konsert musiqisi” monoqrafiyası[1]; Ə.İsazadənin “Azərbaycan sovet bəstəkarlarının instrumental yaradıcılığı” kitabı[2]; ifaçılıq xüsusiyyətləri baxımından isə H.Əliyevanın “Tofiq Bakıxanovun kamera-instrumental əsərlərində ifaçılıq xüsusiyyətləri” monoqrafiyası[3]; Əhmədbəyova F. “Роль фортепиано в камерно - инструментальном творчестве Азерб. композиторов”[4]; N.Abbaszadənin 2 hissədən ibarət “Violonçel sənəti tarixi (XVII-XIX)” dərs vəsaiti[5]; E.İsgəndərovun “Mstislav Rostropoviçlə keçən unudulmaz günlər”[6]; “Ростропович и Баку”[7]; Ü.Hacıbəyli adına BMA-nın kamera ansamblı kafedrası, şəxsi arxiv[8] silsilə məqalələri; Y.Nemətlinin “Azərbaycan bəstəkarlarının yaradıcılığında simli kvartet janrının inkişafı

---

[1] Кулиев Т. “Азербайджанская камерно-инструментальная и концертная музыка для смычковых инструментов”, Азербайджанское Государственное издательство, Баку. Азернешр, 1971.

[2] İsazadə Ə. Azərbaycan Sovet bəstəkarlarının instrumental yaradıcılığı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı Bakı-1961.

[3] Əliyeva H. Tofiq Bakıxanovun Kamera-instrumental əsərlərində ifaçılıq xüsusiyyətləri. Monoqrafiya. Bakı, ADPU., 2004.

[4] Ахмедбейова Ф. “Роль фортепиано в камерно – инструментальном творчестве Азерб. композиторов”, Монография; Баку, “Адилоғлу” 2005.

[5] Abbaszadə N.M. Violonçel sənəti tarixi (XVII-XIX), Dərs vəsaiti. II nəşr, Bakı – 2003.

[6] İsgəndərov E. Mstislav Rostropoviçlə keçən unudulmaz günlər (I-hissə). Musiqi dünyası jurnalı № 1(2), 2000.

[7] Искендеров Э. Ростропович и Баку. Личный архив. (Это статья было написано по просьбе Фараджа Караева, но не было напичатано).

[8] İsgəndərov E. Ü.Hacıbəyli adına BMA-nın kamera ansamblı kafedrası, Şəxsi arxiv.

və ifaçılıq problemləri”[9]; M.Əhədzadənin “Xalq artisti Azad Əliyevin ifaçılıq sənətinin xüsusiyyətləri”[10] adlı dissertasiya elmi əsərlərində bu istiqamət müxtəlif cəhətlərdən işıqlandırılmışdır.

İfaçılıq sənətinin bütün incəliklərinə bələd olan peşəkar mütəxəssis kimi N.Abbaszadənin simli kvartet musiqisinə həsr olunmuş metodik tövsiyələri və solo ifaçılığına aid olan dərs vəsaitləri böyük əhəmiyyət kəsb edərək milli violonçel sənətinin təkmilləşərək tərəqqisinə təkan vermişdir.

Lakin Rus və Qərbi Avropa musiqişünas-tədqiqatçıların elmi əsərlərində bu sahə müəyyən dərəcədə araşdırılmışdır. Qeyd edək ki, rus tədqiqatçılarından L.Raaben “Жизнь замечательных скрипачей и виолончелистов”[11]; L.S.Ginzburq “История Виолончельного Искусства”[12]; “История смычкового исполнительского искусства”[13] adlı elmi əsərləri bu sahədə ən fundamental tədqiqatlardır.

Lakin qeyd edək ki, indiyə qədər violonçel aləti, onun yaranması haqqında, Azərbaycanda milli violonçel məktəbinin görkəmli nümayəndələri ilə bağlı geniş araşdırma işi kompleks şəkildə tədqiq olunmamışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə simli, yaylı musiqi alətləri sırasına daxil edilən Qərbi Avropa musiqi aləti violonçelin, Azərbaycan milli violonçel sənətinin yaranması və inkişafındakı tarixi təkamül prosesi təhlil edilir. Təhlillər zamanı aşağıdakı xüsusiyyətləri üzə çıxarır:

–Violonçel alətinin tarixi, nəzəri və təcrübi komponentlərinin aşkarlanması;

– Milli violonçel ifaçılıq sənətinin formalaşmasında Azərbaycanda xarici violonçel ixtisaslı mütəxəssislərin və milli kadrların rolu;

– Azərbaycan violonçel ifaçılıq sənətində Sabir Əliyev məktəbi;

– Azərbaycan milli violonçel məktəbinin inkişafında qadın ifaçıların rolu;

– Azərbaycan bəstəkarlarının yaradıcılığında yer almış violonçel əsərlərinin ifaçılıq xüsusiyyətləri;

---

[9] Nemətli Y. “Şərqin ilk qadın kvarteti”, Musiqi dünyası jurnalı № 1-2/31 2007, s. 208-209.

[10] Əhədzadə M. Xalq artisti Azad Əliyevin ifaçılıq sənətinin xüsusiyyətləri. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi. Bakı-2011.

[11] Раабен Л.Н. “Жизнь замечательных скрипачей и виолончелистов”, Издательство Музыка, Ленинград 1969.

[12] Гинзбург С.Л. “История виолончельного искусства” (Книга вторая), “Русская виолончельное искусство до 60-х годов XIX века”, Музгиз, Москва 1957.

[13] Гинзбург Л. История виолончельного исполнительского искусства Книга первая, Москва, Музгиз, 1950.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan professional musiqisində milli violonçel sənətinin rolu və əhəmiyyətini aşkarlamaqdan ibarətdir. Milli violonçel sənətinin geniş şəkildə araşdırılması aşağıdakı vəzifələri üzə çıxarır.

– Violonçel alətinin tarixi təkamül prosesinin tədqiqi;

– Azərbaycan professional musiqisində milli violonçel ifaçılıq mədəniyyətinin yaranması;

– Xarici violonçel ixtisaslı mütəxəssislərin və milli ifaçıların Azərbaycan milli violonçel sənətinin inkişafına təsiri;

– Azərbaycan milli violonçel ifaçılıq məktəbinin təşəkkülü;

– Azərbaycan milli violonçel ifaçılıq məktəbində ifaçılıq üslubu və interpretasiya xüsusiyyətləri;

– Azərbaycanda milli violonçel sənətinin simli kvartetlərdə və fortepiano ilə triolarda rolu;

– Violonçel aləti Azərbaycan bəstəkar yaradıcılığında.

Araşdırmada milli violonçel məktəbinin ifaçılıq və yaradıcılıq, həmçinin bu məktəbin görkəmli nümayəndələrinin fəaliyyəti dissertasiyada öz əksini tapır.

**Tədqiqatın metodu və metodoloji bazası.** Dissertasiyada qoyulan problemlərin həllində tarixi metoda əsaslanaraq violonçel alətinin yaranması, təkmilləşməsi və həmçinin bu alətin Azərbaycan musiqi sənətində yeri və rolundan bəhs olunur. Tədqiqatda metodoloji baza kimi müqayisəli, qarşılaşdırma, fərdi və ümumi metoddan istifadə edilmişdir.

Dissertasiyada elmi-metodoloji mənbə kimi Ü.Hacıbəyli[14], T.Quliyev[15], G.Abdullazadə[16], E.Babayev[17], N.Əliyarova[18], N.Abbaszadə[19], H.Əliyeva[20] və digər Azərbaycan musiqişünas tədqiqatçılarının əsərlərindən istifadə edilmişdir.

---

[14] Hacıbəyli Ü. Azərbaycan musiqi təhsili. Əsərləri II cild. Azərbaycan Elmlər Akademiyası. Bakı-1965.

[15] Кулиев Т. Азербайджанская камерно-инструментальная и концертная музыка для смычковых инструментов, Азербайджанское Государственное издательство, Баку. Азернешр, 1971.

[16] Abdullazadə G. Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi – fəlsəfi təhlil. Bakı; Qartal, 1996.

[17] Babayev E. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri. Bakı. Elm, 1988.

[18] Алиярова Н. Аншелевич В.Ц. - Музыкант и учитель, Баку; Елм и тахсил 2012.

[19] Abbaszadə N.M. Violonçel sənəti tarixi (XVII-XIX), Dərs vəsaiti. II nəşr, Bakı Adiloğlu – 2003.

[20] Əliyeva H. Tofiq Bakıxanovun Kamera-instrumental əsərlərində ifaçılıq xüsusiyyətləri. Monoqrafiya. Bakı, ADPU., 2004.

Tədqiqat işində rus musiqişünaslarından A.Altman[21], L.Ginzburq[22], L.Raaben[23] və digərlərinin elmi araşdırmalarına əsaslanılmışdır.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın ***predmeti*** Azərbaycan professional musiqi tarixində milli violonçel məktəbinin yaranması və təkamül yoludur. Tədqiqatın ***obyekti*** Azərbaycan milli violonçel sənəti ifaçılığının yaranmasında violonçel məktəbinin formalaşması, bəstəkar yaradıcılığında yer alması və inkişafıdır.

**Tədqiqatın faktiki materialları.** Burada faktiki material kimi Səlim Qayıbovun, Yuri Abdullayevin, Rasim Abdullayevin, Eldar İsgəndərovun, Nəzmiyyə Abbaszadənin şəxsi arxivindən, not materialı kimi də Əziz Əzizlinin violonçel və piano üçün "Poema", Fərhəng Quluzadənin solo violonçel üçün sonata, Firəngiz Əlizadənin simfonik orkestr və violonçel üçün "Mərsiyə" konserti və internet materiallarından istifadə olunmuşdur.

**Tədqiqatın təcrübi əhəmiyyəti** ondadır ki, dissertasiyanın materialı bütün araşdırmaların nəticəsi olaraq musiqişünasların, sənətşünasların, kamera-instrumental və həmçinin simli alətlər ifaçılarının köməkçi ədəbiyyatına çevrilə bilər. Eyni zamanda dissertasiya ali musiqi tədris müəssisələrində çalışanların mühazirə və seminarlarında da istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" və "Simli alətlər" kafedrasında müzakirə edilmişdir. Tədqiqatın ayrı-ayrı müddəa və nəticələri müəllifin elmi konfranslar, çap olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, altı bölümü özündə birləşdirən üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, saytoqrafiya və notoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

---

[21] Альтман А. Маэстро виолончели // Советская музыка, 1974, № 5. с. 76 -79.

[22] Гинзбург С.Л. История виолончельного искусства (Книга третья), Русская классическая виолончельная школа (1860-1917), Издательство Музыка, Москва 1965.

[23] Раабен Л.Н. Жизнь замечательных скрипачей и виолончелистов, Издательство Музыка, Ленинград 1969.

Dissertasiyanın **I Fəsil: "Qərbi Avropa violonçel sənətinin ifa ənənələrinin yaranmasi və tarixi inkişaf yolu"** adlanır. XV əsrin sonu-XVI əsrin əvvəllərində violino ailəsinə mənsub olan (yəni violino, viola, violonçel, kontrabas) violonçel yayla çalınan milli alətlərin inkişafı nəticəsində yaranmışdır. Xalq musiqisinin təcrübəsində bu alətdən ilk əvvəl müşayiətçi qismində, daha sonra solo alət kimi müxtəlif ansambl və orkestr tərkiblərində mahnıların oxunuşu zamanı geniş istifadə edilirdi.

Məlumdur ki, orta əsrdə *fidel* və *rebek* adları ilə tanınan alətlər violino ailəsinin yaranmasına zəmin yaratmışdır[24]. XIV əsrdən başlayaraq *fidel*in inkişafında iki istiqamət özünü göstərmiş, bu isə XV əsrdə artıq viola və yaylı liralar ailəsinin yaranmasına gətirib çıxarır. Sonuncu ailənin nümayəndəsi olan *lira da braccio* bilavasitə violinonun sələfi oldu.

Yaylı *lira*lar ailəsinə *lira da braccio* (soprano aləti), *lirone da braccio* (alt aləti), *lira da qamba* (tenor) və *lirone perfetto* (bas) daxil idi. *Fidel*in violinoya keçid prosesinin inkişafına əsasən əl ilə ifa olunan *braccio lira*lar, yəni *lira da braccio* və ona yaxın olan *lirone da braccio* təsir göstərmişdir.

Viola ailəsinin formalaşmasında *fidel*lə yanaşı ud (lyutna) da böyük rol oynamışdır. Violanın kvarta-tersiya kökü qrifinin ladla qurulmasını lyutnanın təsiri ilə əlaqələndirmək olar. Yaylı alətlərin sürətli inkişaf prosesi intibah dövrünə təsadüf edilir. Bildiyimiz kimi intibah - dirçəliş, oyanış deməkdir. İncəsənətin bütün sahələrində olduğu kimi musiqi sahəsində də böyük oyanış baş vermişdir.

Bu baxımdan xalq musiqi mədəniyyəti ilə sıx təmasda olan violino ailəsinin yaranma tarixi də XVI əsrə təsadüf edir. XVII əsrin ikinci yarısında artıq violalardan az istifadə edilsə də, İtaliyada violino-violonçel ifaçılıq mədəniyyətinin yüksək inkişaf yolu get-gedə formalaşırdı. Lakin Fransada kübar cəmiyyətin üstünlük verildiyi violadan daha çox istifadə edilirdi.

XVII əsrin ikinci yarısına qədər violonçel aləti *Basso di Viola da braççio* (İtaliyada), *Basse de Violon* (Fransada), *BA viola da Braccio* (Almaniyada) adlanırdı və müxtəlif ölçülərdə hazırlanırdı. Bu alətlərin kök quruluşu adətən $B_1$, F, c, g diapazonlu idi. Daha sonralar XVI-XVII əsrlərdə bu növlü beş və ya altı simli alətlərə də rast gəlinirdi.

C.Ç.Arrestinin 1665-ci ildə Venesiyada çap olunmuş sonatalar toplusunda ikinci-üçüncü səslər violonçel partiyası üçün işlənmiş və ilk dəfə bu alətin ifa prinsipləri üçün nəzərdə tutulmuşdur. XVIII əsrin ikinci yarısında geniş vüsət alan beş simli (C, G, d, a, $c^1$ köklü) kiçik ölçülü *piccolo*

[24] Гинзбург С.Л. виолончельного искусства (Книга первая) Москва, Музгиз, 1950.

violonçel alətinin getdikcə aradan çıxması nəticəsində violonçel ifaçılarının texniki ifa imkanlarının inkişafı prosesi baş verir.

XVII-XVIII əsrlərdə Kremona məktəbi (Andrea Antonio Amati, Andrea Qvarneri, Antonio Stradivari) violonçelin və onun ayrı-ayrı hissələrinin proporsionallığının dəqiqləşdirilməsində, alətin hansı ağacdan düzəldilməsində uyğun materialın seçilməsində və s. böyük rol oynamışdır.

Onu da qeyd edək ki, XVII-XVIII əsrlərdə violonçelin klassik nümunələri italyan ustaları ilə yanaşı K.Berqontsi, D.Montonyana və başqaları tərəfindən yaradılmışdır. Yalnız XVIII əsrin əvvəllərindən etibarən müasir violonçeldə olan ölçü prinsipi təsdiq edilir. (Gövdə 750-768mm, menzura, simin titrəyən hissəsi 690-705mm). XVIII əsrin 80-cı illərində fransız ustası F.Turt (1747-1835) yayın çubuğunun əyilmiş formadan düzəlməsi şəklinin və hərəkət edən hissəsində dəstəyin olmasını tətbiq edir ki, bu da alətin inkişaf edərək təkmilləşməsinə zəmin yaradır. Ümumiyyətlə, "Violonçel alətinin inkişafı və yüksəlişi XVII əsrə təsadüf edir.

XVII əsrin sonu XVIII əsrin əvvəlləri violonçel orkestrdə və kamera musiqisində violino mədəniyyətinın təsiri altında stimullaşırdı. Sıfralanmış bas və onun improvizə xarakteri tədricən inkişaf edərək orkestr və ansambllarda sərbəst violonçel partiyalarının yaranmasına gətirib çıxarır. (C.Torelli, A.Korelli)

Baloniya məktəbi bəstəkarlarla yanaşı həm də bir sıra görkəmli ifaçılar da yetişdirmişdir ki, onların ən parlaq nümunəsindən biri də Dominiko Qabrieli (1654) olmuşdur. D.Qabrielinin violonçel üçün sonatalarında müxtəlif registrlərdən məharətlə istifadə etmə bacarığı, bu alətdə kantilen musiqiyə müraciət, tembr rəngarəngliyi və yaradıcılığına xas olan bir çox xüsusiyyətlər inkişaf edərək XVIII əsr sonata üslubunun formalaşmasına səbəb olmuş və indiki dövrdə də solo əsərləri bu günə kimi öz labüdlüyünü qoruyub saxlamışdır.

XVII-XVIII əsrlərdə yaranan, bədii və pedaqoji mahiyyət isə böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda dəyərli klassik violonçel əsərlərini fundamental olaraq ilk mənbə kimi yaranıb qorunması təkamül prosesinin inkişafı nəticəsində gələcəkdə kamil, peşəkar və mürəkkəb yol keçmiş violonçel ifaçılıq məktəbinin yaranmasına təkan vermişdir.

XVIII əsr İtalyan violonçel ifaçılıq məktəbinin bir sənət kimi formalaşmış kulminasiya nöqtəsini Luici Bokkerininin ifaçılıq və bəstəkarlıq yaradıcılığı təşkil edir ki, bu da məzmun və forma baxımından klassik üslubun yaranmasına gətirib çıxarır. L.Bokkerini violonçel ifaçılıq məktəbinin tərəqqisində yazdığı musiqi əsərləri ilə yeni ifaçılıq xüsusiyyətlərinin formalaşması üçün bir zəmin yaratmışdır. L.Bokkerini ilk dəfə olaraq alt və diskant açarını ləğv etmiş və bununla da violonçel alətinə məxsus not qiraətini yüngülləşdir-

mişdir. Violino ifaçılığı sənətindən bəhrələnən L.Bokkerini eyni zamanda yazdığı musiqi əsərlərində violonçel alətinin diapazonunu genişləndirmişdir.

Məlumdur ki, italyan simli alətlər incəsənəti fransız violonçel sənətinin yüksəlişinə təkan vermişdir. 1741-ci ildə ilk dəfə Paris şəhərində Mişel Korret tərəfindən yazılan, həcmcə yığcam olan, violonçel alətində əllərin quruluşu məsələlərini əhatə edən və pedaqoji not ədəbiyyatının əsasını qoymuş “violonçel məktəbi” adlı dərslik çap edilir.

XVII-XVIII əsrlərdə Marten Berto (1700-1774) adlı məşhur musiqiçi fransız violonçel məktəbinin banisi olmuşdur. O, ifaçılıq sənətinə *qamba* ilə başlayan, sonradan mahir violonçel ifaçısı olmağa qərar verən, məlahətli səslənmələr, yüksək təsir gücünə malik olan, əsərləri ilə müasir dövrümüzdə də öz aktuallığını qoruyub saxlayan ifaçı və bəstəkar idi. Onun pedaqoji fəaliyyəti də böyük əhəmiyyətə malik olmuşdur. Yaratdığı məktəbin davamçıları olan məşhur Jan Batist Küpi, Jan Batist Tilyer, Jan Piyer Düpor fransız ifaçılıq sənətinin parlaq və bariz nümunələrindəndir.

Bu dövrdə görkəmli musiqiçi Jan Pyer Düpor (1741-1818) M.Bertonun ən məşhur davamçılarından biri olub, fransız violonçel incəsənətinin gələcək tərəqqisində böyük rol oynamışdır. “Bir bəstəkar kimi J.P.Düpor bir neçə violonçel konsertinin, sonataların, 8 air varies və başqa əsərlərin müəllifidir. Qriyenin sözlərinə əsaslanaraq demək olar ki, o dövrün alman violonçel ifaçılarının əksəriyyəti J.P.Düporun yetirmələri olub”[25].

Dövrünün digər bir məşhur violonçel ifaçısı J.P.Düporun (1749-1819) müəllimi böyük qardaşı yuxarıda haqqında danışdığımız J.P.Düpor olmuşdur. Fransız violonçel ifaçılığı incəsənətində Jan Luinin fəaliyyəti ustadından daha çox qiymətləndirilmiş, dəyərli, mütərəqqi fikirləri və yaradıcılığı ilə musiqi mədəniyyəti tarixində layiqli yerlərdən birini tutmuşdur.

Bütün əvvəldə deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, XVII - XVIII əsr fransız violonçel ifaçılıq incəsənəti mürəkkəb bir yaradıcılıq yolu keçmişdir. Məhz bu dövrü ilkin ifaçılıq və yaranan əsərlər, qamba mədəniyyətinin təsiri, milli violonçel məktəbinin yaranması və XVIII əsrin II yarısında isə bu alətin tərəqqisi əhatə edir. Paris konservatoriyasının violonçel metodikası və pedaqogikası yüksək səviyyədə olması ilə əlaqədar olaraq avropanın incəsənət mərkəzinə çevrilmişdir.

Almaniyada *qamba* alətindən daha çox istifadə edilməsinə rəğmən violonçel ifa incəsənətinin inkişafı violino ifaçılığından yetərincə geri qal-

[25]Гинзбург Л. История виолончельного исполнительского искусства том 4. Москва Музыка, 1950. книга I, с. 190.

mışdır. Yalnız XVIII əsrin II yarısından zəngin ifadə vasitələrinə malik olan violonçel aləti *qamba*nı əvəz etmişdir. Ümumiyyətlə, Alman mədəniyyətinin formalaşmasında və violonçel ifaçılığının inkişafında Hamburq operasının əhəmiyyəti və rolu müstəsna olmuşdur. XVIII əsrdə Almaniyada "*Manheym*" məktəbinin solo violonçel ifaçılığı və not ədəbiyyatı inkişaf edərək simfonik üslubun formalaşmasına və yaylı alətlərin rolunun daha da artmasına gətirib çıxardı.

Almaniyada Berlində isə violonçel incəsənəti nisbətən sonradan formalaşmışdır. XVIII əsrin sonu Berlin şəhərində violonçel sənətini çex, italyan və fransız ifaçıları təmsil edirdilər. Çex mənşəli İqnats Mara, fransız Düpor qardaşları burada işləmişlər. Məşhur italyan violonçel ifaçısı və bəstəkarı L.Bokkerini də on il Prussiya sarayı üçün əsərlər yazmışdır. Bütün bunlara əsasən Alman violonçel ifaçılıq incəsənəti öz yüksəliş dövrünə gəlib çıxır. Alman violonçel sənətinin inkişafında İohan Batist Baumqartner, İ.G.Şetki, İ.B.Trikmer, İ.İ.Kriqk, İ.K.Şlik kimi istedadlı və görkəmli musiqiçilərin rolu əvəzolunmazdır[26].

Görkəmli Alman bəstəkarı İ.S.Baxın violonçel əsərləri isə bu günə qədər hələ də öz aktuallığını qoruyub saxlayır. XIX əsrdə L.Bethoven, R.Şuman, E.Lalo, A.Dvorjak və K.Sen-Sansın violonçel konsertlərinin simfonizasiyası musiqi cəmiyyətinin diqqət mərkəzinə çevrilmişdir.

Ümumiyyətlə, XIX əsrin II yarısına qədər ifaçı violonçeli ayaqları ilə saxlayırdı. Yalnız əvvəldə qeyd etdiyimiz kimi 1860-cı ildən başlayaraq musiqiçi mili yerə söykəyərək çalmağa başlayır. Müasir violonçel alətlərində isə fransız violonçel ifaçısı P.Tortelye tərəfindən icad edilən əyilmiş mildən geniş istifadə edilir. O, violonçelə maililik verərək, ifa texnikasının asanlaşmasına nail olur ki, bu da alətin daha da gözəl səslənməsinə zəmin yaradır.

Rusiya violonçel ifaçılıq incəsənətinin özəyi bilavasitə bütün Slavyan yaylı alətlərinin ifa mədəniyyəti ilə sıx təmasdadır. "Rus violonçel məktəbinin yeni, daha yüksək professional səviyyəyə qalxması K.Y.Davıdovun adı ilə bağlıdır. O, məşhur musiqiçi, mahir ifaçı, istedadlı bəstəkar və Rusiyada konservatoriya təhsilini təşkil edən şəxslərdən biri idi. K.Y.Davıdov yaradıcılığı ilk gündən Peterburq konservatoriyası ilə bağlı olmuşdur. O, görkəmli pedaqoq-professor kimi özünü göstərmişdi və bir sıra gözəl violonçel ifaçıları yetişdirmişdir. K.Y.Davıdovun hərtərəfli istedadı, bədii zövqü və

---

[26] Abbaszadə N.M. Violonçel sənəti tarixi (XVII-XIX), Dərs vəsaiti. II nəşr, Bakı; Adiloğlu – 2003. s.88.

ifaçılıq məharəti bilavasitə dövrünün dahiləri-rus klassik bəstəkarlarının təsiri altında inkişaf etmişdir”[27].

XX əsr musiqi yaradıcılığında və üslub xüsusiyyətlərinin böyük inkişaf prosesi nəticəsində əsərlərdə sərbəstlik, improvizəlik geniş vüsət almışdır. Bu dövrdə violonçel aləti üçün solo əsərlər daha çox yazılmışdır. Məhz deyilənlərə bariz nümunə olaraq onu qeyd edək ki, Fransada K.Debüssi, A.Oneqqer, M.Miyo, A.Jolibe, Ruminiyada C.Enesey, Macarıstanda Z.Koday, Almaniyada M.Reğer, P.Xindemit, V.Fortner, İngiltərədə E.Elqar, B.Britten, Çexiyada Y.Fyorster, B.Martinu, ABŞ-da S.Barber, U.Piston, İsveçrədə E.Blox, F.Marten, Braziliyada E.Vila Lobos kimi bəstəkarlar öz yaradıcılıqları boyu xarici ölkələrin violonçel ifaçılığı tarixinə daxil edilərək bu sənətin tərəqqisində mühüm əhəmiyyət daşımışlar[28].

XX əsr musiqi tendensiyasına diqqəti-nəzər yetirsək görərik ki, əvvəlki dövrlərdən fərqli olaraq solo violonçel repertuarının zəngin ifadə vasitələri kamera və orkestr əsərlərinə təsir etmə nəticəsində inkişaf etmişdir.

Bu dövrün əfsanəvi ispan dirijoru, humanist, maarifçi Pablo Kazals violonçel ifaçılığı fəaliyyəti sahəsinin genişlənməsi, repertuar və konsert proqramının təkamül prosesinin inkişafında və interpretasiya problemlərinin həlli məsələlərin tərəqqisində mühüm rol oynamış beynəlxalq violonçel ifaçılıq incəsənətinin zirvəsini təşkil etmişdir.

Bütün deyilənlərə əsaslanıb belə bir nəticəyə gəlmək olar ki, XX əsr musiqi ifaçılığı incəsənəti tarixində violonçel solo alət kimi daha proqressiv mütərəqqi nöqteyi-nəzərdən çıxış etmiş, üslub və janr müxtəlifliyi, zəngin ifadə və texniki vasitələri, musiqi dilinin mürəkkəb və rəngarəngliyi, tonal və atonal təfəkkürü, quru və sərt səslənməsi sıçrayışlı, qırıq tematik xəttləri, “vurğulu” ştrixləri, yeni ifaçılıq üsulları yaratmaqla yadda qalmışdır. Beləliklə, Qərbi Avropa violonçel sənətinin yaranması və inkişafı tarixi özünəməxsus bir məktəb yaratmışdır. Bu sənət əsasən orta əsrlərdən başlayaraq bu günümüzə qədər İtaliya, Fransa və Almaniya mühitlərində musiqi sənətində violonçel ifaçılığı sahəsində əhəmiyyətli dərəcədə rol oynamışdır.

**Dissertasiyanın II fəsli “Azərbaycan musiqi mədəniyyətində violonçel alətinin tətbiqi və onun inkişaf yollari”** adlanır. Bu fəsil iki bölmədən ibarətdir. **2.1. “Azərbaycanda xarici violonçel ixtisaslı mütəxəssislərin milli violonçel məktəbinin inkişafında rolu”** tədqiq olunur. Azərbay-

---

[27] Abbaszadə N.M. Violonçel sənəti tarixi (XVII-XIX), Dərs vəsaiti. II nəşr, Bakı; Adiloğlu – 2003. s.88.

[28] Газета «Эхо». 29 сентября 2007. Я исполняю завет своего отца - Мстислава Ростроповича.

can professional bəstəkarlıq məktəbinin XX əsrin əvvəllərində yaranması müxtəlif janrlı əsərlərin də meydana gəlməsinə zəmin yaratmışdır. Bunun üçün təbii ki, fərdi və ansambl şəkilli ifa prinsiplərinin inkişaf etdirilməsi labüd hal kimi bəstəkarların nəzər diqqətini cəlb etmişdir. Buna görə də Qərbi Avropa musiqisinə xas olan fortepiano ilə trio, simli kvartet və orkestr tərkiblərinin yaranması və formalaşması istər-istəməz violino, fortepiano, truba, violonçel və s. bu kimi alətlərin ifaçılığının Azərbaycanda da öyrənilməsi və müxtəlif janrlı əsərlərin ifasına tətbiq edilməsi labüd hal kimi meydana gəlmişdir. Buna görə də dahi bəstəkar Ü.Hacıbəyli professional bəstəkarlıq məktəbinin inkişaf etdirilməsi ilə əlaqədar olaraq Azərbaycana bir çox alət ifaçılarını dəvət edir.

Bu dövrdə digər böyük bir musiqiçi və violonçel ifaçısı V.S.Anşeleviç[29] Azərbaycan ifaçılıq sənətinin və kamera musiqisinin inkişafında mühüm işlər görmüş, pedaqoji fəaliyyəti ilə böyük bir "məktəb" ənənələri yaradan musiqiçilərdən olmuşdur.

Uşaqlıq illərini Tiflisdə yaşayan Vladimir Sezaroviç Anşeleviç 1912-ci ildə 4 noyabr tarixində Vladiqafqazda anadan olmuşdur.

Təqribən səkkiz yaşından V.S.Anşeleviç Tiflis Konservatoriyasında professor K.A.Minyar-Beloruçevin violonçel ixtisası üzrə sinfində təhsil almışdır. (Qeyd etmək lazımdır ki, Minyar-Beloruçevin soyadı Jeltobryuxov idi. O, MDK-da A.Qleninin sinfində oxumuşdur ki, o da rus violonçel məktəbinin təməlini qoyanlardan biri olan K.Davıdovun yetirməsi olmuşdur).

Fenomenal mürəkkəb texnikaya və musiqi qabiliyyətinə malik olan Anşeleviçin fitri istedadını görən böyük musiqiçi dairəsi onun ifaçılıq üslubunu yüksək dəyərləndirmişdir.

V.S.Anşeleviç uğurlu çıxışının nəticəsi olaraq Ukraynanın Xarkov şəhərində L.Bethoven adına dövlət fortepiano triosunda işləməyə dəvət alır. O, eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olur.

V.S.Anşeleviç dahi Üzeyir bəyin təşəbbüsü ilə ADK-da müəllim vəzifəsində çalışmağa dəvət alır.

V.S.Anşeleviçin Bakıya dəvət alması onun həyatında vacib dəyişikliklərə səbəb olur. O Üzeyir bəyin şəxsi dəvəti ilə həyat yoldaşı M.Şebzaeviçlə (Xarkov musiqi texnikumunun məzunu olub) birgə Bakıya köçür və ömrünün böyük hissəsini burada yaşayıb (1936-1992).

---

[29] Вах: Алиярова Н. Аншелевич В.Ц. – Музыкант и учитель. Баку; Елм и Тахсил 2012. с.13.

ADK-da fəaliyyətə başlayan V.S.Anşeleviç eyni zamanda onillik musiqi məktəbində (indiki Bülbül adına musiqi məktəbi), Azərbaycan Dövlət simfonik orkestrində, Opera və Balet teatrının simfonik orkestrində çalışmışdır. Bütün bu işlərlə yanaşı o, konsert proqramı ilə də daima çıxış edirdi.

V.S.Anşeleviç 1938-ci ildə Azərbaycan Dövlət simfonik orkestrin violonçel qrupunun konsertmeysteri təyin edilir.

Onun sonata musiqisi gecələrində M.Brenner, V.Kozlovla birgə ifaları dinləyici və musiqiçilərin yaddaşında silinməz izlər buraxmışdır. O, ansambl ifaları zamanı trioda-M.Brenner və violinoçu S.Şakla, simli kvartetdə isə S.Şak, L.Rossomaxin və M.Reytixlə çıxış etmişdir.

Məlumdur ki, Üzeyir bəyin təşəbbüsü ilə violonçel ixtisası üzrə mütəxəssis hazırlığında, kamera ansamblları ilə çıxışlarla yanaşı, eyni zamanda orkestrin tərkibində solist kimi fəaliyyət göstərən tanınmış musiqiçilərdən L.Rostropoviç, A.Şvars, V.S.Anşeleviç, İ.Turiç və A.Neymanın bu sənətin inkişafındakı rolu mühüm olmuşdur. Biz əzmlə deyə bilərik ki, onların milli kadr hazırlığındakı rolu əvəzolunmazdır.

1960-cı ildə ADK-da kamera ansamblı kafedrası yaranmışdır ki, bu kafedraya da tanınmış professional violonçel ifaçısı və pedaqoq İ.Turiç rəhbərlik etmişdir. 1962-1976-cı illərdə isə həmin kafedranın müdiri V.S.Anşeleviç olduğu zaman kafedranın yaradıcılıq və təşkilatı özülü qoyulmuşdur.

Klassik musiqinin və eyni zamanda ifaçılıq sənətinin təbliği və maariflənməsi yolunda əhəmiyyətli rol oynayan V.S.Anşeleviç 1972-ci ildə Azərbaycan Respublikasının "Əməkdar İncəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1984-cü ildə parlaq violonçel ifaçısı S.M.Kozolupovun 100 illiyinə həsr olunmuş Ümumittifaq elmi konfransda məruzə ilə çıxış etmiş, 1990-cı ildə isə R.Mustafayev adına İncəsənət muzeyində sənətkarın yubiley konserti keçirilmişdir. 1992-ci ilin dekabr ayında V.S.Anşeleviç həyat yoldaşı ilə birgə İsrailə köçmüş və 1993-cü ildə isə orada vəfat etmişdir.

1993-cü ildə L.Rostropoviç adına İncəsənət muzeyində V.S.Anşeleviçin xatirəsinə həsr olunmuş konsertdə onun tələbələri Eldar İsgəndərov, Səadət Səfərova, pianoçu Nərgiz Əliyarova, Elnarə Həşimova və violinoçu Töhfə Babayeva çıxış etmişlər. Bütün bu deyilənlərə əsaslanıb belə bir nəticəyə gəlmək olar: V.S.Anşeleviçin yaradıcılıq diapazonu çox şaxəli olmuşdur. Azərbaycan bəstəkarlarının violonçel üçün yazılmış əsərlərin ilk ifaçılarından biri kimi gənclərin maariflənməsində mühüm rol oynamışdır.

Bir pedaqoq kimi V.S.Anşeleviç violonçel ifaçılığı sənətinin və kamera musiqisinin inkişafında əhəmiyyətli rol oynamışdır. Azərbaycanda yaşayıb-yaradan, ifaçılıq, pedaqoji, metodiki və nəzəri fəaliyyəti ilə milli

klassik musiqi mədəniyyətimizin tərəqqisində mühüm işlər görmüş digər bir violonçel ifaçısı Abram Neymanın rolu böyük olmuşdur.

A.Neyman 1927-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1937-ci ildə qeyri-adi musiqi qabiliyyətinə malik olan A.Neymanın "istedadlı yeniyetmələr qrupunda", eyni zamanda onillik musiqi məktəbində (indiki Bülbül adına orta ixtisas musiqi məktəbində) təhsil almışdır.

A.Neyman musiqi məktəbində və konservatoriyada oxuduğu illər ərzində violonçel ixtisası üzrə məşhur pedaqoq və ifaçı V.Anşeleviçdən dərs almışdır.

İstedadlı musiqiçi A.Neyman 1944-cü ildə musiqi məktəbini əla qiymətlərlə bitirdikdən sonra həmin il ADK-ya, V.S.Anşeleviçin sinfinə qəbul olur və ali təhsil ocağını 1949-cu ildə uğurla tamamlayır. A.Neyman 1945-ci ildən-1982-ci ilə qədər orta ixtisas musiqi məktəbində violonçel sinfində dərs deyir. Böyük təcrübə və savada malik olan A.Neyman 1946-1964-cü illər ərzində dünya şöhrətli maestro Niyazinin rəhbərliyi ilə Azərbaycan Dövlət simfonik orkestrinin tərkibində işləmişdir. O, bu orkestrlə bir çox yerli və xarici tanınmış görkəmli dirijor və solist-ifaçılarla çıxış etmişdir. Məsələn, dirijorlardan T.Niyazi, L.Ginzburq, O.Qrüner-Hegge, N.Raxlin, F.Qlier, Q.Çerkasov, pianoçulardan S.Rixter E.Gilels, violinoçulardan D.Oystrax, L.Koqan, A.Əliyev, violonçel çalanlardan M.Rostropoviç, D.Şafran, L.Parnas, E.Bentsson və başqaları buna bariz nümunədir.

O, eyni zamanda bir çox monoqrafiyaların elmi redaktoru olmuşdur. 1965-1970-ci illər ərzində böyük təşkilatçılıq və yaradıcılıq qabiliyyətinə malik olan A.Neyman ADK-da tarixi-nəzəriyyə və vokal fakültələrinin dekanı vəzifəsində çalışmışdır. Niyazinin təşəbbüsü ilə A.Neyman hətta illər boyu simfonik, kamera orkestrlərin və başqa kollektivlərin konsertlərində mühazirəçi-musiqişünas kimi çıxış etmişdir. Onun yetirmələri Zaqafqaziya və Orta Asiyada keçirilən bir çox müsabiqələrin laureatı adına layiq görülmüşlər. 1982-ci ildə A.X.Neyman dosent adına, 1993-cü ildə isə professor vəzifəsinə layiq görülmüşdür.

Məhsuldar, çalışqan musiqiçi eyni zamanda ədəbiyyat, məntiq, fəlsəfə, rəssamlıq, memarlıq, hüquq elmlərinin dərin bilicisi idi. Bununla yanaşı A.X.Neyman şairlik qabiliyyətinə də malik olmuşdur. Onun fəaliyyəti dövründə bir neçə şerləri və rübailəri "Azərbaycan ədəbiyyatı" jurnalında nəşr edilmişdir. Ümumiyyətlə, o, həm də şərq poeziyasının vurğunu idi. 2000-ci ildə A.X.Neyman öz arzusu ilə İsraildən qayıdaraq Bakı şəhərinə dönür və burada vəfat edir. Görkəmli ifaçı, ansamblçı, təşkilatçı, maarifçi, metodist, mühazirəçi-musiqişünas və pedaqoq A.Neyman milli violonçel ifaçılığı sənətində göstərdiyi şərəfli xidmətlərə görə Azərbaycan

musiqi incəsənəti tarixində ən fəxri yerlərdən birini tutur.

**2.2 "XX əsrdə Qərbi Avropa violonçel sənətinin dünyəvi inkişafında və Azərbaycan milli violonçel məktəbinin çiçəklənməsində Rostropoviçlər şəcərəsinin rolu"** adlanır. XX əsrin əvvəllərinə təsadüf edən Azərbaycan klassik musiqi mədəniyyətinin inkişaf mərhələsi bilavasitə Qərbi Avropa musiqi mədəniyyətinə yiyələnmə ilə özünü göstərmişdir. Burada eyni zamanda klassik Avropa və milli musiqinin inteqrasiya prosesinin mövcudluğu milli professional musiqi və ifaçıların formalaşmasına zəmin yaratmışdır. Onu da qeyd etmək lazımdır ki, Qərb-Şərq təmayüllərinin bir vəhdətdə verilməsində, məhz milli klassik musiqi sənətinin formalaşmasında Avropa musiqiçilərinin rolu da müstəsnalıq təşkil edir.

Ü.Hacıbəyli tərəfindən Azərbaycana dəvət olunan musiqiçilər arasında RSFSR-in Əməkdar artisti Azərbaycan konservatoriyasının professoru məşhur violonçel ifaçısı, dirijor, pedaqoq, bəstəkar Leopold Rostropoviç də olmuşdur. O, 26 fevral 1892-ci ildə Voronej şəhərində pianoçu və pedaqoq Vitold Rostropoviçin ailəsində anadan olmuşdur. Onu da qeyd edək ki, Rostropoviçlər yüz altmış üç il və dörd nəsli ardıcıllaşması ilə musiqi dünyasında ənənəvi olaraq professional səviyyənin zirvəsində olmuş, təqdim edilərək ifaçılıq incəsənəti tarixində yüksək qiymətləndirilmişlər.

Vitold Rostropoviç Leypsiq Konservatoriyasında (Almaniya) təhsil almışdır. Oğlu Leopoldun ilk piano müəllimi də məhz atası olmuşdur. 25 sentyabr 1913-cü ildə Vitold Qannibaloviç Rostropoviç Voronej şəhərində vəfat etmişdir. Məşhur musiqiçilər nəslinə mənsub olan Leopold Vitoldoviçin violonçel ixtisası üzrə müəllimi çex mənşəli A.Lukineç olmuşdur.

1905-ci ildə Leopold Peterburq konservatoriyasına daxil olur və tanınmış violonçel ifaçısı və pedaqoq Aleksandr Verjbiloviçin sinfinə təyin edilir. Leopold dünya şöhrətli, məşhur violonçel ifaçısı Pablo Kazalsdan 1911-ci ildən başlayaraq ustad dərsləri alır. Leopold Rostropoviç 1913-1914-cü illərdə tanınmış musiqiçi Marinski teatrının violonçel qruppası ilə əməkdaşlıq etmiş, 1918-1919 və 1923-1925-ci illərdə Saratov Konservatoriyasının professoru vəzifəsində çalışmışdır.

L.Rostropoviç dahi Üzeyir bəyin şəxsi dəvəti ilə Bakıya işləməyə gəlir və 1925-1931-ci illərdə ADK-nın professoru vəzifəsində və Azərbaycan Dövlət Simfonik orkestrində çalışır. Onun pedaqoji fəaliyyətindən bəhs edərkən ADK-da çoxsaylı tələbələri arasında İ.Turiçi, A.Zeynallını, G.Krupkini, Ə.Kərimovu, Ə.Daşdəmirovu, F.Ələkbərovu bariz nümunə kimi göstərmək olar. Qeyd etmək vacibdir ki, onun yetirməsi A.Zeynallı bəstəkarlıqla yanaşı ölkəmizdə ilk təhsilli violonçel ifaçısı olmuşdur.

Həmin dövrlərdə L.Rostropoviç eyni zamanda daima solist-ifaçı kimi musiqi gecələrində və xeyriyyə konsertlərində çıxış etmişdir. O, E.Eydlin, N.Tsimberov, V.Adamski, L.Rostropoviçin iştirakı ilə Azərbaycanda ilk simli kvarteti yaratmışdır.

1927-ci ildə Leopold Vitoldoviçin Mstislav adlı oğlu dünyaya gəlir ki, o da gələcəkdə əfsanəvi, dünya şöhrətli violonçel ifaçısına çevrilir. Uşaqlarının musiqi təhsilini daha da yüksək səviyyədə olması üçün Rostropoviç ailəsi 1931-ci ildə Moskva şəhərinə köçür. Leopold Vitoldoviç stabil olaraq konsert proqramı ilə çıxış edir. M.F.Qnesini adına musiqi liseyində dərs deyir və 1935-ci ildə Rusiyanın "Əməkdar artisti" fəxri adına layiq görülür.

Lakin ikinci dünya müharibəsinin başlanması ilə əlaqədar Rostropoviçlər Orenburqa yaşamağa gəlir. Leopold həyat yoldaşı ilə birgə musiqi məktəbində dərs deyir. Lakin 3 iyul 1942-ci ildə məşhur violonçel ifaçısı və pedaqoq Leopold Rostropoviç Orenburqda qəflətən vəfat edir.

Aparılan tədqiqat işlərinə əsaslanıb deyə bilərik ki, Mstislav Rostropoviçin Azərbaycanla bağlı həyat və yaradıcılığı, mədəni əlaqələri, dünya siyasətində vətənə xidmətləri, ümumiyyətlə "Bakı dövrü" dörd mərhələyə bölünür: 1) 1925-1931-ci illər; 2) 1960-1970-ci illər; 3) 1997-2006-cı illər; 4) 2007-ci ildə Mstislav Rostropoviçin vəfatından sonrakı mərhələ.

M.Rostropoviçin uşaqlıq illəri I dövrü əhatə edir. 1938-ci ildə Moskva şəhərində Azərbaycan incəsənət dekadası ongünlüyündə Leopold Rostropoviç tədbirin iştirakçılarının biri ilə Bakıya "Azad Azərbaycan" orkestr süitası partiturasının əlyazmasını göndərmişdir. Qeyd edək ki, dörd yaşlı Mstislavın ilk dəfə fortepiano üçün "Polka" rəqsi də məhz odlar yurdunda yazılmışdır.

Azərbaycanda milli violonçel sənətinin təməlini qoyan, ilk simli kvartetin yaradıcısı, Rostopoviçlər zadəgan səcərəsinin IX nümayəndəsi olan M.Rostropoviç 27 mart 1927-ci il tarixində Leopold Vitoldoviçin ailəsində anadan olmuşdur. L.Rostropoviç oğluna violonçel ixtisasından, anası Sofiya isə fortepianodan dərs keçirdi. Valideynlərin peşəkar musiqi ilə məşğuliyyəti nəticəsində Veronika violinoda, Mstislav isə kiçik yaşlarından royalda qəliz əsərlər çalmağa cəhd göstərmişdir.

Mstislav 1943-1948-ci illər ərzində P.İ.Çaykovski adına MDK-da təhsil alarkən 1942-ci ildə ilk violonçel konsertini təqdim edir. Qeyd edək ki, bu müddət ərzində o, fortepiano, dirijorluq və bəstəkarlıq sənətinə də dərindən yiyələnmişdir. Rus sovet bəstəkarlıq məktəbinin nümayəndələrindən olan Dmitri Şostakoviç M.Rostropoviçə dərs demişdilər.

P.İ.Çaykovski MDK-da M.Rostropoviç Q.Qarayevlə birlikdə D.Şostakoviçin sinfində eyni zamanda təhsil almışdır. Mstislav Leopoldoviç Q.Qarayevi "son dərəcə istedadlı bəstəkar" adlandırmışdır.

On altı yaşında ali təhsil ocağına qəbul olan Rostropoviç 1947-ci, 1949-cu və 1950-ci illərdə Praqa və Budapeştdə keçirilən beynəlxalq musiqi müsabiqələrinin qalibi olmuş, hətta 1950-ci ildə, 23 yaşında ikən sovet ittifaqının ən yüksək mükafatı sayılan – Stalin mükafatına layiq görülmüşdür.

1955-ci ildə Mstislav Böyük teatrın sopranosu tanınmış opera müğənnisi Qalina Vişnevskaya ilə ailə həyatı qurur, 1956-cı ildə isə P.İ.Çaykovski adına MDK-nın professor vəzifəsinə təyin edilmişdir.

Dünya vətəndaşı və azadlıq carçısı kimi tarixlərin yaddaşına həkk olan M.Rostropoviç üçün D.Şostakoviç, S.Prokofyev, A.Şnitke, A.Bernşteyn, B.Britten, A.Piazolla kimi dahi, nəhəng bəstəkarlar musiqi yazmışdır.

Onun Azərbaycanla bağlı fəaliyyətinin II mərhələsi 1960-1970-ci illərə təsadüf edir. Məhz bu dövrdə Sabir Əliyevin ən qabaqcıl yetirmələri Moskva şəhərinə ezam edilərək M.Rostropoviçdən ustad dərsləri keçmiş və violonçel ifaçıları kimi Azərbaycanı Zaqafqaziya, ümumittifaq və beynəlxalq müsabiqələrdə layiqincə təmsil etmişlər.

Dahi sənətkar 1964-cü ildən 2007-ci ilə qədər keçdiyi ustad dərslərin sayəsində ölkəmizdə yüksək səviyyəli musiqiçi nəslinin yaranmasına zəmin yaratmışdır. 1971-ci ildə Ümumilli liderimiz cənab Heydər Əliyevin tapşırığı ilə dünya şöhrətli musiqiçi Bakı şəhərinə gəlir. Azərbaycanda onu görkəmli incəsənət xadimləri Niyazi, Q.Qarayev, T.Quliyev, A.Rzayev, F.Bədəlbəyli və rejissor T.Kazımov böyük hörmət və ehtiramla qarşılayırlar. Həmin ilin senytabr ayında M.Rostropoviç ADF-da hər gün iki konsert proqramı ilə çıxış edir.

1974-cü ildə M.Rostropoviç ailəsi ilə birgə ABŞ-a gedir. Artıq 1978-ci ildə isə M.Rostropoviç və Qalina Vişnevskaya sovet vətəndaşlığından məhrum olunurlar. 1977-1994-cü illər ərzində Vaşinqton milli simfonik orkestrinin baş dirijoru işləmişdir. Sonralar isə İngiltərə və Fransa milli simfonik orkestrinin dirijoru və bədii rəhbəri kimi də fəaliyyət göstərmişdir.

Görkəmli musiqiçi Birləşmiş Krallıqda Benjamin Britten və Piter Pirsin təsis etdikləri "Aldeburgh festival"ının mütəmadi iştirakçısı olmuşdur.

1990-cı ildə keçmiş SSRİ Ali Soveti Rəyasət heyəti M.Rostropoviçlə bağlı qərarı ləğv edir və onun bütün fəxri adları və rus vətəndaşlığı bərpa olunur.

M.Rostropoviçin yaradıcılığının "Bakı dövrü" adlandırılan III mərhələsi 1990-2007-ci illəri əhatə edir. 2002-ci ildə Bakı şəhərində Leopold və Mstislav Rostropoviçlərin ev muzeyi açılmışdır.

2004-cü ildə ADF-nın açılışı ilə əlaqədar olaraq Mstislav Rostropoviç vətənə gəlir. Burada onu Ulu öndərin davamçısı, prezidentimiz İlham Əliyev cənabları qarşılayır.

Mstislav Rostropoviçin son gəlişi, onun təşəbbüsü ilə 2006-cı il tarixində görkəmli bəstəkar D.D.Şostakoviçin 100 illik yubileyinə həsr olunmuş festivalın keçirilməsi ilə bağlı idi.

Əfsanəvi musiqiçi, həmyerlimiz M.Rostropoviç 2007-ci il aprelin 27-də Moskva şəhərində vəfat edir. Beləliklə, dünya vətəndaşı və azadlıq carçısı kimi tanınan kamil şəxsiyyət tarixlərin yaddaşına əbədi həkk olunur.

Mart ayında M.Rostropoviçin Rusiyada 80 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdə möhtərəm prezidentimiz İlham Əliyev iştirak etmiş və dahi musiqiçiyə vətənin ən ali mükafatı sayılan "Heydər Əliyev" ordenini, Rusiya prezidenti Vladimir Putin isə "Vətən qarşısında xidmətlərə görə" ordeni təqdim etmişdir[30].

Onun "Bakı" dövrünün IV mərhələsi 2007-ci ildən bu zamana qədər davam edən dövrdür. "Heydər Əliyev məni Azərbaycana qaytardı" sözlərini deyən dahi musiqiçinin vəfatından sonra qızı Olqa Rostropoviç atasının milli mədəni irsimizi zirvəyə qaldırmaq ideyasını yenidən həyata keçirməyi öhdəsinə götürdü: "Musiqini fədakarcasına sevən və özünü musiqiyə fəda edən atam, Bakının dünyanın musiqi mərkəzlərindən biri olmasını arzu edirdi. Tədricən onun arzusunun həyata keçəcəyinə mən əminəm."

Bakıdakı M.Rostropoviç fondunun prezidenti, eləcə də M.Rostropoviç adına birinci beynəlxalq festivalın prezidenti olan Olqa Mstislavovna atasının vətənə qarşı olan xeyirxah fikirlərinin bariz davamçısı olaraq irsən gələn ənənələrin yaşamağına zəmin yaratdı.

Görkəmli musiqiçinin vəfatından sonra hər il mütəmadi olaraq respublikamızda M.Rostropoviç adına beynəlxalq festival keçirilir.

2006-cı ildə D.Şostakoviçin yüz illiyinə həsr olunmuş festivalın təşəbbüskarı M.Rostropoviç bu yüksək ənənələrin bünövrəsini qoymuşdur.

Fəsli sona yetirərək, belə bir nəticəyə gəlmək olur ki, violonçel incəsənəti tarixində və Azərbaycan milli violonçel məktəbinin yaranması və formalaşmasında L.Rostropoviçin, M.Rostropoviçin, V.Anşeleviçin, İ.Turiçin, S.Əliyevin, A.X.Neymanın, S.Kozolupovanın, T.Primenkonun və digərlərinin ifaçılıq fəaliyyətlərinin Azərbaycan milli professional musiqisinə təsiri mühüm əhəmiyyət daşımışdır. Elə buna görədir ki, Azərbaycanda milli

---

30 Hacızadə A. Mstislav Rostropoviç vəfat etmişdir. Azərbaycan qəzeti. 28 aprel 2007-ci il.

violonçel sənətinə ilk həvəs göstərən ifaçılar bu sənətin tarixi inkişafı üçün bir zəmin yaratmışlar.

**III Fəsil: "Azərbaycan violonçel sənətinin inkişafinda milli ifaçılıq məktəbinin yaranması və əhəmiyyəti"** adlanır və üç bölmədən ibarətdir. **3.1 Milli violonçel ifaçılıq məktəbinə professor Sabir Əliyev tərəfindən təməli qoyulan töhfə** - XX əsrin II yarısında, xüsusən 60-80-ci illərində Azərbaycan incəsənətində dirçəliş dövrü özünü büruzə verirdi. Musiqidə janr müxtəlifliyi, müxtəlif zövqlərin formalaşması, bəstəkarların üslub rəngarəngliyi, yaradıcılıq aləmində fikir azadlığı və digər cəhətlər aydın şəkildə göstərirdi.

Violonçel ifaçısı S.Əliyevin də yaradıcılığı, ifaçılığı belə bir dövrə təsadüf etmişdir. S.Əliyev – Azərbaycan musiqi mədəniyyətinin dünya musiqi mədəniyyəti səviyyəsinə qalxmasında, həmçinin yeni ifaçılıq üslubları axtarışlarında böyük uğurlar əldə etmişdir. O, yaratdığı violonçel məktəbinin ifaçılıq dəsti-xətti ilə seçilərək öz gənc tələbələrini də bu yolla addımlamağa çağırırdı. Bu baxımdan S.Əliyevin ifaçılıq məktəbinin və bu məktəbin davamçılarının milli violonçel incəsənətinin inkişafındakı rolunu tədqiq etməyə labüd hesab edirik.

1973-cü ildən peşəkar mütəxəssis ADK-nın kamera ansamblı kafedrasında müəllim vəzifəsində çalışmış, həm də simli alətlər kafedrasında violonçel incəsənəti və metodikası üzrə dərslər aparmışdır.

S.Əliyev dəfələrlə Azərbaycan bəstəkarlarının violonçel əsərlərini redaktə etmişdir, eyni zamanda bu alət üçün yazılan etüdlərin müəllifi olmuşdur. Onun violonçel üçün tərtib etdiyi məcmuəsi milli ladların, xalq mahnı və rəqslərinin işləmələri əsasında violonçel və fortepiano üçün yazılmışdır.

"XX əsrin 50-ci illərin əvvəllərində kafedranın tərkibinə yeni qüvvə ilə ADK-nın yetirmələri daxil olmuşdur. Professor, Azərbaycan Respublikasının Əməkdar artisti S.Əliyev sərbəst yaradıcılıq yolunu məhz buradan başlamış və onun ixtisas sinfini konservatoriyada iyirmiyə yaxın tələbə bitirmişdir. Onların bəziləri tanınmış, parlaq musiqiçilərdir. Bunlardan Y.Abdullayev – violonçel ifaçılarının III Ümumittifaq müsabiqəsinin laureatı adına layiq görülüb. Rasim Abdullayev – gənc musiqiçi-ifaçıların II Zaqafqaziya müsabiqəsinin laureatı, A.Məmmədov, E.İsgəndərov - gənc musiqiçi-ifaçıların III Zaqafqaziya müsabiqəsinin laureatları, M.Drobinski – Münhendə keçirilən beynəlxalq müsabiqə laureatı və eyni zamanda "Gənclik" SSRİ Dövlət fortepiano ilə triosunun üzvü olmuşdur.

Sabir Əliyev "məktəb" ənənələrinin layiqli davamçılarından biri də Səlim Qayıbovdur. İstedadlı musiqiçi 1962-1973-cü illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində, 1973-1978-ci illər Ü.Hacıbəyov adına

ADK-da, 1979-1981-ci illərdə isə assistent-stajorluq üzrə professor Sabir Əliyevin sinfində təhsil almışdır.

Azərbaycan klassik ifaçılıq mədəniyyətinin inkişaf edərək zənginləşməsində S.Əliyev "məktəb" ənənələrinin davamçısı Əməkdar artist, professor Yuri Abdullayevin rolu böyük olmuşdur.

Azərbaycan Dövlət fortepiano triosu haqda yazılmışdır: "...1967-ci ildə S.Qəniyev (violino), Y.Abdullayev (violonçel), G.Sadıqova (fortepiano) tərkibli trio yaranmışdır. 1971-ci il yanvar ayının 15-də ADF-da bu kollektivin ilk konserti oldu.

Bunlarla yanaşı ustad sənətkar həm də ictimai xadim olmuşdur. Vaxtının çox hissəsini hərbi hissələrdə, kitabxanalarda, mədəniyyət saraylarında keçirmişdir. O, həm də Azərbaycan SSRİ Mədəniyyət Nazirliyinin nəzdində musiqi təhsili tədris-metodiki kabinetin simli alətlər bölməsinin sədri vəzifəsində çalışaraq respublikanın musiqi məktəbləri və texnikumunda fəaliyyət göstərən müəllimlərin pedaqoji təcrübəsinin düzgün istiqamətlənməsinə də xidmət etmişdir.

Y.Abdullayev ifaçılıq, ansamblçı, metodiki, ictimai xadim və pedaqoji fəaliyyəti ilə S.Əliyev "məktəb" ənənələrinin layiqli davamçısı olaraq peşəkar musiqiçi kimi milli violonçel incəsənətinin inkişafında əhəmiyyətli rol oynamışdır. S.Əliyev məktəb ənənələrinin şərəfli yetirmələrindən biri sayılan Rasim Abdullayevin də milli violonçel incəsənəti tarixinin inkişafında əhəmiyyəti və rolu böyük olmuşdur.

R.Abdullayev sanki çalğısı ilə aləti danışmağa vadar edir. Görkəmli violonçel ifaçısı, ansambl ifaçısı, pedaqoq, orkestr solisti R.Abdullayev 1944-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1951-1962-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində, 1962-1967-ci illərdə isə Ü.Hacıbəyov adına ADK-da, violonçel ixtisası üzrə professor S.Əliyevin sinfində təhsil almışdır.

Zaqafqaziya müsabiqələrində professor S.Əliyevin yaratdığı violonçel sinfinin nümayəndələri daima yüksək nəailiyyətlər nümayiş etdirmişdir. Azərbaycan Respublikasının Xalq artistləri R.Abdullayev, E.İsgəndərov, Əməkdar artist Y.Abdullayev, A.Babayev, S.Qayıbov, A.Məmmədov kimi musiqiçi-ifaçıların bu müsabiqələrin laureatı adını qazanması deyilənlərə bariz sübutu-dəlildir". 1973-cü ildə R.Abdullayev Ü.Hacıbəyov adına ADK-nın aspirantura-assistentliyini bitirmişdir. R.Abdullayev ADK-da ifaçılıq və pedaqoji fəaliyyətini uğurla yerinə yetirir. 1968-1969-cu illərdə R.Abdullayev P.İ.Çaykovski adına MDK-nın aspiranturasında dünya şöhrətli əfsanəvi musiqiçi, Mstislav Rostropoviçin sinfində violonçel ixtisası üzrə təhsil almışdır.

1976-1979-cu illər ərzində tanınmış sənətkar Qahirə Konservatoriyasına violonçel sinfində dərs deməyə ezam edilir. 1979-1987-ci illər ərəfəsində peşəkar musiqiçi Qahirədən qayıdandan sonra Ü.Hacıbəyli adına BMA-da pedaqoji fəaliyyətini davam etmişdir.

Rasim Abdullayev 1980-ci ildə yaranan trioda da konsertmeysterlik etmişdir. O, 1987-1994-cü illərdə Suriyada işləməyə ezam edilir. 1987-ci ildə görkəmli sənət fədaisi R.Abdullayev professor vəzifəsinə təyin olunmuşdur. 1994-cü ildə isə Azərbaycan Respublikasının Əməkdar artisti adına layiq görülmüşdür.

Səhnələri fəth edən parlaq musiqiçi 2005-ci ildə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülmüşdür. 2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Almaniyanın paytaxtı Berlin şəhərində "Qarabağ günləri" adlı tədbirdə Xalq artisti, professor Fərhad Bədəlbəyli ilə birgə konsertlər vermişdir.

S.Əliyev məktəbinin ən parlaq və şərəfli yetirmələrindən biri, əslən Şuşalı olan, tanınmış Qayıbovlar nəslinin məşhur siması Azərbaycan Respublikasının Xalq artisti Eldar İsgəndərov 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. Klassik şairimiz Vidadi onun ulu babalarından biridir. İlk azərbaycanlı pianoçu qadın Xədicə Qayıbova, dahi Üzeyir bəyin antreprenyorlar truppasında çalışan Məmmədəli Qayıbov da görkəmli musiqiçinin qohumlarıdır. O, 1957-1968-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində violonçel ixtisası üzrə əvvəl V.Anşeleviçin, iki ildən sonra İ.Turiçin sinfində təhsil almışdır. İ.Turiçin vəfatından sonra S.Əliyev Eldar İsgəndərovun ixtisas üzrə müəllimi təyin edilmişdir. 1968-1973-cü illər ərzində də o, ADK-da nadir istedada malik olan kamil şəxsiyyət və musiqiçinin violonçel sinfində təhsilini davam etmişdir. Sabir Əliyevin vəfatından sonra həyat yoldaşı Elmira Əliyeva görkəmli ustad sənətkara məxsus olan italyan ustası David Teklerin düzəltdiyi aləti Eldar İsgəndərova bağışlamışdır.

M.Rostropoviç həmkarı S.Əliyevlə dostluğun bariz nümunəsi kimi onun ən istedadlı yetirmələri sayılan Rasim Abdullayeva, Yuri Abdullayeva, Ramiz Məlikaslanova və Eldar İsgəndərova Moskva şəhərində təcrübə toplamaq üçün ustad dərsləri keçirdi.

Sənətində böyük məktəb "ənənələri" yaşadan Eldar İsgəndərov tam ali təhsilini bitirdikdən sonra Ü.Hacıbəyov adına ADK-ya pedaqoq kimi çalışmağa dəvət olunur. Eldar İsgəndərov bir çox Azərbaycan bəstəkarları ilə əməkdaşlıq etmişdir. Q.Qarayevin, C.Hacıyevin, F.Əmirovun, N.Əliverdibəyovun, V.Adıgözəlovun, T.Bakıxanovun, A.Rzayevin, R.Mirişlinin, N.Məmmədovun, Ə.Əzizovun, S.İbrahimovanın, F.Əlizadənin, G.Abdulla-

zadə, C.Quliyevin, A.Dadaşovun, F.Hüseynovun, E.Dadaşovanın, E.Məmmədovun və bir çox bəstəkarlıq məktəbinin nümayəndələrinin əsərlərinin ilk ifaçısı və təbliğatçısı olmaqla milli musiqi ifaçılıq mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamışdır.

Beləliklə, milli violonçel ifaçılıq məktəbinin görkəmli nümayəndəsi olan Sabir Əliyev böyük fitri istedada malik idi. Keçən əsrin 50-ci illərin əvvəllərində musiqimizə daxil olan S.Əliyev ömrünün sonuna qədər çox parlaq yaradıcılıq fəaliyyətini nümayiş etdirmişdir. Onu demək lazımdır ki, uzun müddət Azərbaycanda violonçel üçün yazılan bütün əsərlərin ifaçısı S.Əliyev olmuşdur. Musiqiçinin ifaçılıq sənətini qiymətləndirməklə yanaşı, biz eyni zamanda onun müəllimlik fəaliyyətini də vurğulamaq istərdik.

**3.2. "Nəzmiyyə Abbaszadə Azərbaycan milli violonçel məktəbinin inkişafında qadın ifaçıları simasında"** adlanır. Milli violonçel məktəbinin inkişafında Azərbaycanda xarici violonçel ixtisaslı mütəxəssislərin və milli ifaçılarımızla bərabər bu sahədə həm də qadın ifaçılarımızın da rolu və əməyi danılmazdır. Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, professor Nəzmiyyə xanım Abbaszadənin milli violonçel məktəbinin inkişafında rolu tükənməz və təqdirə layiq olmuşdur. Nəzmiyyə xanım Abbaszadə həm müasir violonçel ifaçılıq məktəbinin ən parlaq simalarından olan, öz geniş yaradıcılığı ilə milli klassik musiqi mədəniyyətimizin tərəqqisi və zənginləşməsində müstəsna rol oynayan şəxsiyyətlərdəndir.

Gənc musiqiçi N.Abbaszadə ilk təhsilini ADK-nın nəzdində mərkəzi orta ixtisas musiqi məktəbində (indiki Bülbül adına orta ixtisas musiqi məktəbi) violonçel ixtisası üzrə əvvəl Fərhəng Quluzadənin, sonra isə Tatyana Olesovanın sinfində almışdır. (O dövrdə 1937-1938-ci illərdə məktəb yaradılıb və Kövkəb xanım 1952-ci ilə qədər məktəbin direktoru vəzifəsində çalışmışdır.)

N.Abbaszadənin fəaliyyətində özünü büruzə verən ifaçılıq, ansambl fəaliyyəti və müəllimlik, pedaqoji istiqamətlərin mövcudluğu da S.Əliyevdən gələn ənənədir. N.Abbaszadənin yaradıcılıq fəaliyyəti son dərəcə rəngarəngdir. O, solo ifaçılıqla yanaşı məşhur qadın musiqiçilərindən ibarət simli kvartetin təşəbbüskarı və solisti olmuşdur.

Professor Rəşid Seyidzadə rəhbərlik edərək ansamblın daha da surətlə inkişaf etməsinə zəmin yaradırdı. O zaman ADK-nın rektoru görkəmli bəstəkar Cövdət Hacıyev də simli kvartetin fəaliyyətinə şəxsən özü nəzarət edirdi və onun səyi nəticəsində ansambl P.İ.Çaykovski adına MDK-da tanınmış L.Bethoven simli kvartetinin üzvü, məşhur viola ifaçısı V.V.Borisovski tərəfindən dəfələrlə məsləhət saatı almışlar.

1970-1973-cü illər ərzində P.İ.Çaykovski adına MDK-da assistent-stajorluq üzrə təhsilini bitirib Bakıya qayıdan N.Abbaszadə "simli alətlər" kafedrasında çalışır və konservatoriyanın nəinki musiqili, həm də ictimai həyatında fəal iştirak edir. Məsələn, o, tələbə elmi cəmiyyətin rəhbəri və kafedranın metodiki şurasının sədri seçilir.

Nəzmiyyə xanımın ifaçılıq fakültəsinin dekanı vəzifəsində çalışdığı müddətdə onun təşkilatçılığı nəticəsində bir çox beynəlxalq layihələr həyata keçirilib. İfaçılıq fakültəsinin "Simli alətlər", "Nəfəs və zərb alətləri" və "Solo oxuma" kafedrasının tələbələri mütəmadi olaraq bu layihələrdən bəhrələnərək uğurla respublikamızı xarici ölkələrdə təmsil edirlər.

N.Abbaszadənin ümumi fəaliyyətinin elmi-tədqiqat işlərini qeyd etmək istərdik. Burada da onun təhsil prosesi ilə bilavasitə əldə olunan nəaliyyətləri də vardır. İlk növbədə 2009-cu ildə nəşr olunan "violonçel məktəbi" adlı dərs vəsaitini göstərmək lazımdır. Kitabın yaranma tarixi var və onun barəsində danışmağa dəyər. Məsələ ondadır ki, bu müntəxabatın üzərində uzun illər işləyən Sabir Əliyev olmuşdur. Amma onun ölümü ilə bağlı iş sona çatdırılmamışdır. N.Abbaszadə müəlliminin əlyazmaları əsasında olduqca əhəmiyyətli olan dərs vəsaitini bitirir və öz müəlliminin başladığı işi sona çatdırır. Tədris prosesində bu cür ədəbiyyatın nə dərəcədə faydalı və əhəmiyyətli olması aktual problemin həlli kimi çox mühüm əhəmiyyət kəsb etmişdir.

N.Abbaszadə vətənə göstərdiyi xidmətlərə görə 2008-ci ildə Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

İfaçılıq incəsənətinin bütün incəliklərinə bələd olan peşəkar mütəxəssis kimi N.Abbaszadənin simli kvartet musiqisinə həsr olunmuş metodik tövsiyələri və solo ifaçılığına aid olan dərs vəsaitləri böyük əhəmiyyət kəsb edərək milli violonçel sənətinin təkmilləşərək tərəqqisinə təkan vermişdir.

N.Abbaszadənin pedaqoji nəaliyyəti nəticəsində hal-hazırda üç nəsli təmsil edən violonçel ifaçıları yetişir ki, onlar Azərbaycanı layiqincə, respublikamızda və xaricdə təmsil edir, milli ifaçılıq sənətinin tükənməməsinə və daima inkişaf etməsinə təkan verir.

N.Abbaszadə tarixi şəxsiyyət olub şərqdə ilk xanım violonçel ifaçısı və ilk simli qadın kvartetinin təşəbbüskarı və solisti kimi milli ifaçılıq incəsənətinə şərəflə daxil edilmişdir.

**3.3 Azərbaycan bəstəkarlarının müxtəlif janrlarda violonçel üçün yazılan seçilmiş əsərlərin təbliğatçısı – Eldar İskəndərovun ifaçılıq nümunəsində (Ə.Əzizli violonçel və fortepiano üçün "Poema", Fərhəng Hüseynov solo violonçel üçün "Sonata", Firəngiz Əlizadə violonçel və simfonik orkestr üçün "Mərsiyə" adlı konsert)** adlanır. Azərbaycanda

milli violonçel məktəbinin müasir dövrümüzdə ifaçılıq ənənələrinin genişləndirilməsi və davam etdirilməsi müxtəlif ifaçıların və bəstəkarların nəzər diqqətini cəlb edir. Bu baxımdan biz E.İsgəndərovun ifaçılıq prinsiplərinə Əziz Əzizlinin, Fərhəng Hüseynovun və Firəngiz Əlizadənin bəstəkarlıq yaradıcılığı ilə bağlı bir neçə məqamlara diqqət yetirək.

1944-cü ildə Əşrəf Abbasovun bəstələdiyi violonçel və fortepiano üçün "Poema" əsəri bu sahədə ilk nümunə sayılır. Qeyd edək ki, konservatoriyada L.V.Rostropoviç, A.S.Şvars, V.Anşeleviç, İ.M.Turiç, A.Neyman kimi violonçel ifaçılarının fəaliyyəti bir sıra Azərbaycan bəstəkarlarını bu alət üçün yeni-yeni maraqlı əsərlər yaratmağa sövq edirdi. Bu qəbildən Ə.Hüseynzadə, H.Xanməmmədov, N.Əliverdibəyov, S.Ələsgərov, E.Nəzirova, T.Bakıxanov, V.Adıgözəlovun və A.Rzayev kimi bəstəkarların bu alət üçün yazdıqları əsərlər buna misal ola bilər.

Əziz Əzizli violonçel və piano üçün «Poema» əsərini 1962-ci ildə yazmışdır. Poema klassik müasir musiqi ənənəsinə uyğun yazılmışdır. Əsərdə cahargah və şur intonasiyalarından ardıcıl şəkildə istifadə edilmişdir. Burada istifadə olunan musiqi cümləsi variasiyalı təkrar zamanı intonasiya müxtəlifliyi ilə fərqlənir. İstifadə edilən musiqi cümlələri və periodlar variasiya olunarkən qeyd etdiyimiz intonasiyalar üzərində dəyişikliyə uğrayır.

Bəstəkar violonçelin imkanları və milli musiqi alətlərinin imitasiyalı səslənməsindən böyük zövqlə istifadə edir. Əsərin melodik kompleksi, lad-intonasiya strukturu mövzunun inkişaf prinsipləri, hətta tembr xüsusiyyətləri məhz obrazın yaranmasına xidmət edir.

Bütün repertuarın forma və ifaçılıq baxımından şərh edilməsi bir dissertasiya həcminə sığmadığı üçün Azərbaycan bəstəkarlarının violonçel əsərlərinin ilk ifaçısı, redaktoru və interpretatoru olan Eldar İsgəndərovun zəngin konsert proqramından olan Fərhəng Hüseynovun solo violonçel sonatasının təhlilini açıqlamağı labüd bildik.

Azərbaycan müasir musiqi incəsənətində müxtəlif janrlarda əsərlər bəstələmiş Fərhəng Rəhim oğlu Hüseynov Q.Qarayev məktəb ənənələrinin davamçısı olmuşdur. Eyni zamanda o çox gözəl violin ifaçısı, Moskva Dövlət Konservatoriyasında Koqanın sinfində təhsil almış, böyük istedada malik olan bir musiqiçidir.

Yazdığı əsərlərində muğam və aşıq intonasiyalarından rəngarəng şəkildə istinad və istifadə, müraciət etdiyi alətlərin texniki imkanlarının, tembr xüsusiyyətlərinin yüksək səviyyədə əks olunması bəstəkarın yaradıcılığının əsasını təşkil edir. F.Hüseynovun Q.Qarayev sənətinə bağlılığı da qeyd olunan cəhətləri bir daha vurğulayır.

Fərhəng Hüseynovun violonçel üçün solo sonatası milli violonçel musiqisi tarixində ilk solo əsərdir. Parlaq, emosional, eyni zamanda nəfis, filiqran texnika, dərin məna və aydın üslub şəffaflığı mürəkkəb əsərin ifaçılıq xüsusiyyətlərinin səciyyəsidir.

Bəstəkarın yaradıcılıq axtarışlarının daim zəngin xalq sənətindən bəhrələnməsini, milli musiqi üslubunun təcəssümündən doğan parlaq və bitkin əsərlər yaratdığını xüsusi qeyd etmək vacibdir[31].

Fərhəng Hüseynovun solo violonçel üçün yazdığı "Sonata" təqdim etdiyimiz işin təhlil obyektidir.

Bu əsər 1976-cı ildə F.Hüseynovun tələbə dostu violonçel ifaçısı Eldar İsgəndərovun təklifi ilə yaranıb. Əsər yazıldıqdan bir müddət sonra müəyyən səbəblərə görə sonata yarımçıq qalır. Lakin əslən macar olan violonçel ifaçısı Tomaş Lakatoş 1978-ci ildə Moskvada Fərhəng Hüseynovdan əsəri tamamlamasını xahiş edir.

1979-cu il 23 noyabrda həmin sonatanı Eldar İsgəndərov Moskva şəhərində, keçmiş SSRİ-nin Bəstəkarlar İttifaqının zalında ilk dəfə peşəkar səviyyədə tam şəkildə ifa edir[32].

Sonata dörd hissəli silsilə formasında bəstələnmişdir. Əsərdə dramaturji məntiq, dinamik inkişaf, zəngin intonasiya rəngarəngliyi, muğam və aşıq musiqisinə müraciət və bu musiqilərdən irəli gələn improvizəlilik özünü büruzə verir. Əsər lirik xarakterdədir. Bəstəkar klassik musiqi ilə xalq musiqi cizgilərinin üslub birliyini orijinal şəkildə təqdim etmişdir. Qeyd edək ki, ifaçılıq baxımından çətin olan və nadir hallarda ifa olunan bu əsər Azərbaycan musiqi incəsənətinin təkrarolunmaz incilərindəndir.

Müasir bəstəkarlıq yazı üslubuna müraciət edən F.Hüseynovun musiqisi hər şeydən əvvəl səslənməsinin yeniliyi, müəyyən intonasiyalar və keçidlərin özünəməxsusluğu ilə diqqəti cəlb edir. Müxtəlif tərkibli musiqi elementlərinin vahid şəkildə təqdim etməsi bacarığı müəllifin yaradıcılıq xüsusiyyətlərinin səciyyəsidir.

Artıq müasir dövrümüzdə Azərbaycan bəstəkarlarının violonçel üçün yazılmış olan əsərləri tanınmış xarici violonçel sənətkarları tərəfindən dünya səhnələrində ifa olunması Azərbaycan violonçel ifaçılıq və bəstəkarlıq məktəbinin beynəlxalq miqyasa yüksəlməsindən xəbər verir. Bu istiqamətdə ön sırada gedən bəstəkarlardan biri də məhz Firəngiz Əlizadə olmuşdur.

---

[31] Bax: Manafona K. Fərhəng Hüseynovun instrumental yaradıcılığının bəzi səciyyəvi xüsusiyyətləri. Bakalavr dərəcəsini almaq üçün diplom işi. Bakı – 2000. s. 44.
[32] Yenə orada.

Firəngiz Əlizadənin violonçel və orkestr üçün konserti "Mərsiyə" əsəri aleatorik müasir kompozisiya metodu əsasında yazılmışdır. Ümumiyyətlə **aleatorika** özü-özlüyündə latın dilində "aşıq-aşıq oyunu" mənasını verir. Burada əsərin sturukturu təsadüfi elementlərin əsas daşıyıcısına əsaslanır. Aleatorikanı ilk dəfə 1952-ci ildə amerikalı bəstəkar Con Keyc "Music of Changes" (Dəyişikli musiqi) əsərində tətbiq etmişdir. Daha sonralar bu kompozisiya metodu Almaniyada Karlhaynç Ştokhauzen, Fransada isə Pyer Bulezin yaradıcılığında 1957-ci ildə yaranmışdır. K.Ştokhauzenin fikrincə burada metodlar nəticələrdən vacib hesab edilir. Aleatorik musiqiyə əsasən fərdi anlar və bəstələnmə prosesinin sərhəddi daxil edilir.

2002-ci ildə görkəmli Azərbaycan bəstəkarı Firəngiz Əlizadənin violonçel və orkestr üçün konsertı "Mərsiyə" əsəri aleatorik prinsip əsasında yazılmışdır. Burada əsas alət violonçeldir. Bəstəkar əsasən aleatorikanın hər iki növünün istifadəsinə geniş yer verir. Belə ki, burada şərti və qəti aleatorikanın prinsipləri özünü büruzə verir. Şərti aleatorikanın prinsipləri kimi bəstəkarın öz təfəkküründən irəli gələn əsas cəhətlər ön plana keçir.

Konsert orkestrin ikili tərkibi üçün nəzərdə tutulmuşdur. Əsasən fleyta, qoboy, klarnet, faqotun ikili tərkibi, 4 valtorna, 2 truba, 1 trambon, simli alətlər arfa, çelesta, violinolar, zərb alətlərində isə timpani, tranqolo, glass chimes, wood block, 3 tom-tom, gran cassa, piatti, tam-tam, campanelli, marimbafono, vibrafono kimi alətlərin dəyişkən tərkibi ilə partiturada əks olunur.

Bəstəkar F.Əlizadənin "Mərsiyə" əsəri *Misterioso* proloq ilə başlayır. Bu əsərə şərti olaraq 3 hissəli forma kimi baxa bilərik və sonata allegro forması ilə müqayisə edə bi Əsər boyu violonçelin solosu və onun bir lider kimi daşıyıcıya çevrilməsi əsərə aid olan intonasiya dəyişikliklərinin və aleatorikanın özünəməxsusluğunun xarakterik cizgilərinin ardıcıllaşması prinsiplərini özündə əks etdirir. Burada əsas məqsəd Azərbaycan xalq musiqisinə aid intonasiya xüsusiyyətlərini muğam sənəti, muğam ifaçılıq prinsipləri dairəsində əks etdirməkdən ibarətdir. Təbiidir ki, Azərbaycan muğam ifaçılığı üçlüyə əsaslanır. Bu üçlüyə vokal ifaçılığı ilə yanaşı onu müşayiət edən tar, kamança və dəf alətləri instrumental şəkildə daxil edilir. Bu baxımdan violonçel əsər boyu özündə simli alətlərə məxsus bir çox tembrlər xüsusiyyətlərini əks etdirməyə çalışmışdır. Məsələn, burada violinoya, kamançaya bənzər tembr səslənmələrinə daha çox rast gəlirik.

Fəsli sona yetirərək belə bir nəticəyə gəlmək olur ki, XX əsrin I yarısında Azərbaycanda xarici violonçel ixtisaslı kadrların Ü.Hacıbəyli tərəfindən Azərbaycana dəvət edilməsi bu xüsusda milli zəmində violonçel ifaçılarının yaranmasına səbəb olmuşdur. Burada Sabir Əliyev ifaçılıq məktəbi-

nin müstəsna rolu danılmaz olmuşdur. S.Əliyevin R.Abdullayev, E.İsgəndərov, N.Abbaszadə, Y.Abdullayev, S.Qayıbov və başqa tanınmış violonçel ifaçılarını yetişdirməsində böyük əməyi olmuşdur. Onun tələbələri Azərbaycan milli violonçel sənətinin zənginləşməsində xidmətlər göstərmişlər. Bu ifaçılar violonçel aləti üçün yazılmış və simfonik əsərlərinin təbliğatçısı və bənzərsiz təfsirçisi olmuşdur.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur**:


1. Violonçel ifaçılığı sənətinə bir baxış. / "Türksaylı xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". XIII Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2014. s.102-103.
2. Azərbaycan violonçel ifaçılığı tarixində Sabir Əliyev fenomeni. // "Musiqi dünyası" jurnalı, № 1/58 2014. s.23-29.
3. Violonçel incəsənətinin yaranma tarixi və XVII-XVIII əsrlərdə İtaliya violonçel sənətinin inkişaf mərhələsi. // "Harmony" Международный музыкальный култорологический журнал. Выпуск № 13/2014. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?s=1&txtid=553
4. Musiqi məftunu. / Musiqiçilərin portreti. (Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Milli Konservatoriyası). // "Konservatoriya" jurnalı. Bakı, 2014. № 2(24). s.122-127.
5. Luici Bokkerini yaradıcılığının violonçel incəsənəti tarixində əhəmiyyəti və rolu. // "Mədənniyyət.az" jurnalı. 10 (296) 2015. s.77-79.
6. XVII-XVIII əsr Fransız violonçel incəsənəti tarixi. // "Harmony" Международный музыкальный култорологический журнал. Выпуск № 13/2014. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=580&s=1&iss=25
7. Fədakar ifaçı və pedaqoq. / Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş "Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransı". (II cild). Bakı, 2015. s. 369-371.
8. Azərbaycan musiqi mədəniyyətində Rostropoviçlərin yeri. / "Türksaylı xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". XIV Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2015. s.107-109.
9. Yuri Abdullayevin milli violonçel incəsənətinin inkişafında rolu. / IX İnternational Turkic Culture, Art and Protection of Cultural Heritage

Symposium/Art Activit. İnterecci di Culture. 07-11. September 2015, Verona-İtaly.

10. Sabir Əliyev "məktəb"inin layiqli davamçısı. // "Rast" müzikoloji dergisi". Tokat – Türkiye, 2015, s. 976-982.

11. Azərbaycan milli violonçel məktəbinin inkişafında Nəzmiyyə Abbaszadənin rolu və əhəmiyyəti. // "Musiqi dünyası" jurnalı, № 1/66 2016. s.53-58.

12. XVII-XVIII əsr Almaniya və Avstriya violonçel incəsənəti tarixi. // "Harmony" Международный музыкальный културологический журнал. Выпуск № 1/2017. "http://harmony.musigi-dunya.az/

13. Violonçel ifaçısı və pedaqoq. (Asəf Zeynallı). // "Musiqi dünyası" jurnalı, № 1/2, 2017.

**Таира Алипаша гызы Мустафаева**

**Роль и значение национальной виолончельной школы в развитии Азербайджанской музыки**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, 3-х глав, 5-и разделов, заключения, библиографии, сайтографии и нотографии. Во введении подчеркивается актуальность, степень разработанности темы, цели и задачи, научное и практическое значение исследования.

Формирование традиций европейской профессиональной композиторской школы в Азербайджане в начале XX века открыло путь для создания музыкальных произведений различных жанров. Для исполнения этих произведений проникновение европейских музыкальных инструментов явилось основной причиной создания Азербайджанской исполнительской школы. Между тем, проникновение инструмента виолончель потребовало создания принципов его исполнительских основ, благодаря усилиям иностранных специалистов появились навыки виолончельного исполнительского искусства, что и явилось базой виолончельной исполнительской школы в Азербайджане. Впервые в историческом и научном аспекте рассматриваются представители национальной виолончельной школы в контексте азербайджанской музыкальной культуры.

**I Глава:** «Возникновение западноевропейских музыкальных традиций виолончельного исполнительского искусства и пути их исторического развития».

**II Глава:** «Претворение исполнительских традиций игры на виолончели в Азербайджанской музыкальной культуре и этапы их становления», состоит из двух разделов. **2.1.** «Роль зарубежных специалистов в развитии виолончельной школы в Азербайджане». **2.2.** «Роль музыкальных традиций семьи Ростроповичей в развитии национальных кадров виолончельной школы в Азербайджане и расцвета их на уровне западноевропейских традиций мирового значения».

**III Глава:** «Национальная исполнительская школа в Азербайджане и его значение в развитии виолончельного искусства», состоит из трех разделов **3.1.** «Вклад профессора Сабира Алиева в дело развития национальной школы виолончельного исполнительства». **3.2.** «Назмия Аббасзаде – в лице женщины первопроходца в развитии национальной виолончельной школы в Азербайджане». **3.3.** «Исполнительская деятельность Эльдара Искендерова, как пример пропаганды произведений азербайджанских композиторов написанные для виолончели в разных жанрах: Азиз Азизли – «Поэма» для виолончели с фортепиано; Фарханг Гусейнов – Соната для соло виолончели; Фирангиз Ализаде – Концерт для виолончели и симфонического оркестра под названием «Мерсие»».

В **заключении** даются выводы и обобщения проведенного исследования.

**Tahira Alipasha Mustafayeva**

## The role and importance of the national cello school in the development of Azerbaijan music

**SUMMARY**

The Dissertation consists of an introduction, 3 chapters, 5 sections, conclusion, bibliography, sitography and notography. The introduction emphasizes the relevance, the degree of development of the topic, the goals and objectives, the scientific and practical significance of the study.

Formation of the traditions of European professional composer school in Azerbaijan opened a way for the creation of musical works of various genresat the beginning of XX century. For the performance of these works penetration of European musical instruments was the main reason for the creation of Azerbaijan Performing School. Meanwhile, the penetration of the cello instrument required the creation of the principles of its performing principles, thanks to the efforts of foreign specialists, appearedthe skills of cello performing arts, which were the base of the cello performing school in Azerbaijan. For the first time in the historical and scientific aspect, the representatives of the national cello school are considered in the context of the Azerbaijani musical culture.

**I Chapter:** "The emergence of Western European musical traditions of cello performing art and the ways of their historical development".

**II Chapter:** "The implementation of the performing traditions of playing the cello in the Azerbaijan musical culture and the stages of their formation". **2.1.** "The role of foreign specialists in the development of the cello school in Azerbaijan". **2.2.** "The role of musical traditions of the family of Rostropovich's in the development of national staff of the cello school in Azerbaijan and their prosperity at the level of Western European traditions of world significance".

**III Chapter:** "National performing school in Azerbaijan and its importance in the development of cello art". **3.1.** "The contribution of Professor Sabir Aliyev in the development of the national school of cello performance". **3.2.** "Nazmiya Abbaszade – in the person of a pioneer woman in the development of the national cello school in Azerbaijan". **3.3.** "Performing activity of Eldar Isgandarov, as an example of propaganda of works of Azerbaijani composers written for cello in different genres: Aziz Azizli – "Poem" for cello with piano; Farhang Huseynov - Sonata for solo cello; Firangiz Alizade – Concert for cello and symphonic orchestra titled "Mersie"".

Conclusions and generalizations of the study are given in **conclusion**.

Çapa imzalanıb: 14.04.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕЙРА ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**ТАИРА АЛИПАША гызы МУСТАФАЕВА**

# РОЛЬ И ЗНАЧЕНИЕ НАЦИОНАЛЬНОЙ ВИОЛОНЧЕЛЬНОЙ ШКОЛЫ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКИ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2017**